**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ŞƏHƏR MƏNTƏQƏLƏRİNİN SOSİAL-DEMOQRAFİK İNKİŞAFI VƏ ŞƏHƏR MƏSKUNLAŞMASININ İQTİSADİ-COĞRAFİ PROBLEMLƏRİ

İxtisas: 5401.01 – "İqtisadi coğrafiya"

Elm sahəsi: Coğrafiya

İddiaçı: **Türkanə Əsəd qızı Əliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan – 2024**

Dissertasiya işi "Naxçıvan" Universitetinin Təbiət Elmləri kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: coğrafiya elmləri doktoru, professor
**Zakir Namin oğlu Eminov**

Rəsmi opponentlər: coğrafiya elmləri doktoru, dosent
**Məlikməmməd Xanoğlan oğlu Məmmədov**

coğrafiya üzrə fəlsəfə doktoru
**Firuzə Mübariz qızı Cəfərova**

coğrafiya üzrə fəlsəfə doktoru
**Səkinə Məşədi Ağa qızı Zülfüqarova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.51 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________ coğrafiya elmləri doktoru, professor
**Çingiz Niyazi oğlu İsmayılov**

Dissertasiya şurasının elmi katibi: ____________ coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Sahilə Əbiş qızı Allahverdiyeva**

Elmi seminarın sədri: ____________ coğrafiya elmləri doktoru, dosent
**Aydın İsmayıl oğlu İbrahimov**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
Ministry of Science and Education of the Republic of Azerbaijan
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
«15» 05 2024

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsrin sonunda ölkəmizdə təsərrüfatın sahə və ərazi strukturunda yaranan problemlər işsizliyin artmasına, əhalinin ərazidə kortəbii şəkildə məskunlaşmasına və Vahid Məskunlaşma Sisteminin pozulmasına səbəb olmuşdur. Naxçıvan iqtisadi rayonu üçün bu problem daha kəskin xarakter almışdır. Əhalinin iqtisadi rayonu tərk etməsi halları, regionda təsərrüfatın ərazi təşkilinin pozulması ilə məhsuldar qüvvələrin Arazboyu zonaya axını baş vermiş, nəticədə məskunlaşmanın strukturu pozulmuş, demoqrafik göstəricilərdə mənfi meylləri formalaşmağa başlamışdır. Son dövrlərdə isə həyata keçirilən islahatların ləngiməsi, regional tədbirlərə ciddi yanaşılmaması, plansız təsərrüfatçılıq, sənaye müəssisələrinin fəaliyyətini itirməsi işsizlik problemini daha da artırmış və məhsuldar qüvvələrin rasional bölgüsü pozulmuşdur. Buna görə uzun illərdir ki, iqtisadi rayonda urbanizasiya prosesi zəif inkişaf edir.

Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramının (UN Habitat) dayanıqlı, inkluziv və təhlükəsiz şəhər modeli yaratmaq prinsipi ölkəmizin də əsas prioritetinə çevrilmişdir. Regionların tarazlı inkişafına nail olmaq üçün sosial-iqtisadi sahədə davamlı tənzimlənmə tədbirləri həyata keçirilir. Muxtar Respublikasının dayanıqlı inkişafı üçün son olaraq qəbul olunan "Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" da makroiqtisadi göstəricilərin artırılması, əhalinin məşğulluğunun yaxşılaşdırılması, əlverişli biznes mühitinin qurulması, ticarətin inkişafı, ixracyönümlü sənayenin inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalının inkişafı, sosial xidmətin və infrastrukturun, eyni zamanda maddi rifah halının yaxşılaşdırılması nəzərdə tutulmuşdur. Şəhərlərdə innovativ proseslər inkişaf edir, institusional strukturlar transformasiya olunur və regionun idarəetmə sistemi təkmilləşir. Buna görə də şəhərlərin strateji inkişafı elə regional strateji inkişafın bir hissəsi kimi qəbul olunmalıdır. İqtisadi rayonda şəhər məskunlaşmasının sosial-demoqrafik inkişaf meyllərinin iqtisadi-

coğrafi problemlər əsasında həll olunması aktuallığı yaranmışdır.

Dissertasiya işində şəhər məskunlaşmasının öyrənilməsinin əhəmiyyəti, məskunlaşma amilləri, şəhər məskunlaşmasının inkişaf meylləri, şəhər məskunlaşmasının səmərəli ərazi-təşkili və perspektiv inkişafının tənzimlənməsinin iqtisadi-coğrafi aspektləri, demoqrafik inkişafın tənzimlənməsi kimi aktual məsələlər kompleks şəkildə tədqiq olunmuşdur.

**Tədqiqat obyekti və predmeti.** Tədqiqat obyekti Naxçıvan iqtisadi rayonunda yerləşən şəhər yaşayış məntəqələri, onların əhalisi və məskunlaşmasının sosial-iqtisadi problemləridir. Tədqiqatın predmeti isə təsərrüfatın sahə və ərazi strukturunun təşkili, məşğulluq probleminin həlli, demoqrafik inkişafın tənzimlənməsi, əmək ehtiyatlarından səmərəli istifadə, məhsuldar qüvvələrin ərazidə düzgün paylanması və ona təsir edən amillərdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** İşin əsas məqsədi müasir mərhələdə şəhər yaşayış məntəqələrinin sosial-demoqrafik inkişafının perspektiv inkişaf istiqamətlərini müəyyənləşdirmək və ona uyğun olaraq tədbirlərin hazırlanmasıdır.

Bu məqsədlə qarşıya bu vəzifələr qoyulmuşdur:

-İqtisadi rayonun geostrateji mövqeyi və ölkə mənafeyinə uyğun şəkildə şəhər məskunlaşmasının inkişaf istiqamətlərini müəyyənləşdirmək;

-İqtisadi rayonda şəhər məkunlaşmanın təbii-iqtisadi amillərini kompleks təhlil etmək, təbii ehtiyatlardan səmərəli istifadə etməyin vacibliyini göstərmək;

-İqtisadi rayonda şəhər məntəqələrinin demoqrafik inkişaf xüsusiyyətlərini təhlil edərək, yaranan demoqrafik meylləri araşdırmaq;

-Şəhər məskunlaşmasının müasir vəziyyətini öyrənmək və əmək ehtiyatlarının səmərəli ərazi təşkilinin iqtisadi-coğrafi yollarını müəyyənləşdirmək;

-Şəhər məskunlaşmasının perspektiv inkişafının nizamlanmasına iqtisadi-coğrafi aspektdən yanaşmaq və urbanistik proseslərin inkişafında Dövlət Proqramlarının rolunu müəyyənləşdirməkdir.

**Tədqiqatın metodları.** Tədqiqatın nəzəri əsasını iqtisadi

coğrafiya və əhali coğrafiyası sahəsində Azərbaycan və xarici ölkə alimlərinin əsərləri, regionların dayanıqlı inkişafı üçün qəbul olunmuş Dövlət Proqramları, əhalinin siyahıyaalınmasının son üç dövrü, Naxçıvan Dövlət Statistika Komitəsi, AMEA Coğrafiya İnstitutunun materialları, sosial sorğu və digər statistik məcmuələr və bülletenlər təşkil edir.

Tədqiqat işinin yerinə yetirilməsində statistik təhlil, riyazi analiz, tarixi müqayisəlilik, sistemli təhlil, ekstrapolyasiya, SWOT (GZİT) təhlil, kartoqrafik, ərazinin cəlbedicilik əmsalı tədqiqat metodlarından istifadə olunmuşdur.

**Müdafiə olunan müddəalar:**

-İqtisadi rayonda şəhərlərin retrospektiv təhlili və şəhər məskunlaşmasının formalaşmasında təbii-coğrafi və iqtisadi-coğrafi amillərin rolu, onlardan səmərəli istifadə istiqamətləri

-Müstəqillik illərində həyata keçirilən sosial-iqtisadi inkişaf proqramlarının şəhərlərin iqtisadi bazasının güclənməsinə, məşğulluq probleminin həllinə və məhsuldar qüvvələrin ərazidə paylanmasına təsiri

-İqtisadi rayonda şəhər yaşayış məntəqələrinin sosial-demoqrafik inkişaf xüsusiyyətlərinin təhlili, şəhər məskunlaşmasının müasir meyllərinin müəyyənləşməsi və onların nizamlanması istiqamətləri

-Şəhər məskunlaşmasının səmərəli ərazi təşkili və perspektiv inkişafının tənzimlənməsinin iqtisadi-coğrafi aspektləri.

**Tədqiqat işinin yenilikləri** aşağıdakılardan ibarətdir.

-İqtisadi rayonda şəhər məntəqələrinin sosial-demoqrafik inkişaf xüsusiyyətləri apardığım sosial sorğu və rəsmi statistik məlumatların sistemli analizi ilə hərtərəfli araşdırılmış, müasir şəhər məskunlaşmasının meylləri öyrənilmiş və inzibati rayonlar üzrə urbanizasiyanın vəziyyətini əks etdirən xəritələr hazırlanmışdır.

-Şəhər əhalisinin qısamüddətli coğrafi proqnozlaşdırılması aparılmış və miqrasiyasının kəmiyyət və keyfiyyət göstəricilərinin ərazi fərqləri, həmçinin Ərazi İnkişaf İndeksi müəyyən olunaraq şəhərlərin inkişaf amilləri tədqiq olunmuşdur.

-Şəhər məskunlaşmasının ərazi təşkilinin nizamlanması, əmək ehtiyatlarından səmərəli istifadə olunması, demoqrafik inkişafın

tənzimlənməsi ilə iqtisadi rayonda məskunlaşmanın optimal inkişafının iqtisadi-coğrafi parametrləri tədqiq olunmuş və dayanıqlı inkişaf tədbirlərinin rolu müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Naxçıvan iqtisadi rayonunda şəhər məskunlaşması tədqiqatların aparılması nəticələri iqtisadi rayonun dayanıqlı inkişafının təmin edilməsi üçün nəzəri əhəmiyyət kəsb edir. Tədqiqat işindən şəhərlərdə yerli icra orqanları, Naxçıvan MR Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, həmçinin şəhər problemləri ilə məşğul olan aidiyyəti qurumlar istifadə edə bilər. Həmçinin ali təhsil müəssisələrində geourbanistika və əhali coğrafiyasının öyrənilməsində də mühüm elmi-praktik əhəmiyyət kəsb edə bilər.

**Aprobasiyası və tətbiqi.** Aparılmış tədqiqatın nəticələri, müddəaları ölkəmizdə və xaricdə keçirilən beynəlxalq və yerli konfranslarda, yığıncaqlarda, həmçinin Naxçıvan Universitetinin Təbiət Elmləri kafedrasının hesabatlarında dinlənilmişdir.

Dissertasiya işinin əsas materialları aşağıdakı elmi konfranslarda məruzə edilmişdir: “Azərbaycan və Rusiyada insan coğrafiyası: XXI əsrdə inkişafın əsas yollar” (Bakı, 2019), “Ankara ıı uluslararası bilimsəl araşdırmalar konqresi” (Ankara, 2020), “5 th international congress on social sciences (Kiev, 2020), “İn oral and technical presentation, recognition and appreciation of research contributions to international conference on evolving trenos in interdisciplinary research and practices-ııı” (New York City, 2020), “Təhsil, tədqiqat və innovasiyanın vəhdəti” (Naxçıvan, 2021) “Coğrafiyanın müasir problemləri: elm və təhsilin inteqrasiyası (Bakı, 2022), “Təhsil, tədqiqat və innovasiyanın vəhdəti” (Naxçıvan, 2022), “Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri” (Gəncə, 2022), “Экономика, право. инновации: опыт, проблемы, перспективы” (Minsk 2022), “Beynəlxalq İpək yolu və Naxçıvan” (Naxçıvan, 2022), Proccedings of the XVI International Scientific and Practical Conference Principles of science. Ideals, norms, values in science and style of scientific thinking (Tallinn, 2023), Proccedings of the XVIII International Scientific and Practical Conference Developing an understanding of the specificities and functions of

scientific language (Zurich, 2023).

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** "Naxçıvan" Universitetinin "Təbiət elmləri" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya işi giriş – 5 səhifə, (7890 işarə), III fəsil, 11 yarımfəsil, o cümlədən, I fəsil 41 səhifə, (71510 işarə), II fəsil 65 səhifə, (78767 işarə), III fəsil 28 səhifə, (39111 işarə) nəticə və təkliflər - 2 səhifə, (3780 işarə), nəşrə istinadı əhatə edən 158 sayda ədəbiyyat mənbələri olan ədəbiyyat siyahısından, 69 cədvəl, 1 xəritə-sxem, 5 xəritə, 7 diaqram, 8 qrafik, 6 şəkil əlavə edilmişdir. Dissertasiya işi 181 kompüter səhifəsi həcmində olub 201058 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, məqsəd və vəzifələri, nəzəri və metodoloji əsasları, tədqiqatın obyekt və predmeti, elmi yenilikləri və praktik əhəmiyyəti müəyyən edilmişdir.

Birinci fəsil "**Şəhər məskunlaşmasının öyrənilməsinin əhəmiyyəti və formalaşmasının təbii-iqtisadi amilləri"**nə həsr olunmuşdur. Bu fəslin yarımfəsilləri altında şəhərlərin məskunlaşma sistemində əhəmiyyəti, şəhərlərin öyrənilməsinin nəzəri-metodik əsasları, təbii-coğrafi, iqtisadi-coğrafi inkişaf amilləri öyrənilmiş və şəhər məskunlaşmasının mərhələləri xronoloji ardıcıllıqla göstərilmişdir.

Şəhərlər proporsional məskunlaşma sisteminin formalaşmasında, iqtisadi artımın dəstəklənməsində, məhsuldar qüvvələrin yerləşdirilməsində, əhalinin ətraf ərazilərdə dayanıqlı məskunlaşmasının təmin olunmasında, demoqrafik göstəricilərin nizamlanmasında, əhali məşğulluğunun təmin edilməsində, əmək ehtiyatlarından səmərəli istifadə olunmasında xüsusi rol oynayır. Hazırda iqtisadi rayonda urbanizasiya səviyyəsi 35,4%-dir ki, bu urbanizasiya göstəricilərində "orta" olaraq qiymətləndirilir. Əhalisinin sayı baxımından iqtisadi rayonda 1 böyük, 5 kiçik şəhər və 9 qəsəbə mövcuddur. Məskunlaşma sisteminin istinad dayaq karkası kimi yalnız böyük şəhərlər deyil, kiçik şəhərlər də çıxış edə bilər. İqtisadi rayonun ümumi şəhər əhalisinin

40,4%-i kiçik şəhərlərdə yaşayır. Naxçıvan şəhəri çoxfunksiyalı şəhər olduğundan təsir dairəsinin radius-məsafəsi periferik olaraq genişlənir və ucuz torpaq sahələri hesabına ətraf yaşayış məntəqələrinin funksional ixtisaslaşmasını təmin edir. Regionun kiçik şəhərləri isə ölkənin və ətraf kəndlərin iqtisadi, sosial və demoqrafik inkişafında əhəmiyyətli rol oynamır, əsasən inzibati-idarəetmə, təsərrüfat-təşkilat, ticarət-paylayıcı və sosial-mədəni funksiya daşıyırlar.

Urbanizasiya elmi fənlərarası xarakter daşısa da, prosesin ilk tədqiqi coğrafiya elmi çərçivəsində aparılır. Müasir dövrdə şəhər məskunlaşmasının öyrənilməsində dünya coğrafiyaçılarından M.Veber, Q.Lappo, E.Persik və başqaları, ölkəmizdə isə A.A.Nadirov, Ə.M.Hacızadə, Ş.Ə.Göyçaylı, E.Q. Mehrəliyev, Ş.K.Dəmirqayayev, M.A.Abramov, K.M.Məmmədov, Z.N.Eminov, V.Ə.Əfəndiyev, S.Q.Nağıyevin, N.H.Əyyubov, Ş.Dəmirqayayevin, Ş.Muradovun, N.Ə.Paşayevin, E.S.Bədəlovun, H.M.Tahirovanın və başqalarının tədqiqatları xüsusi əhəmiyyət kəsb edir.

Şəhərlər bir-biri ilə səbəb və nəticə əlaqələri ilə bağlı olan fiziki, tarixi və iqtisadi faktorlardan meydana gələn mürəkkəb struktura malik yaşayış məntəqələridir. Ölkəmizdə urbanizasiyanın inkişafını ərazinin iqtisadi coğrafi mövqeyi, təbii və iqtisadi-sosial amillər, nəqliyyatın inkişafı, inzibati-hüquqi qanunvericilik müəyyənləşdirir. İqtisadi-coğrafi və geosiyasi mövqeyi təbii şərait amilləri ilə birlikdə regionun tarixən məskunlaşmasına səbəb olub. Tarixi mərhələlərdə ictimai-siyasi münasibətlər zəminində İCM regionun inkişafına müsbət və mənfi təsir etmişdir. Xarici dövlətlərlə həmsərhəd olması nəqliyyat mövqeyinin özünəməxsusluğunu artırır. Hazırda iqtisadi rayonun Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə sərhəddə 3 gömrük məntəqəsi var. Ermənistanla isə fövqəladə 246 km-lik dövlət sərhəddi vardır. İCM komponentləri şəhərlərin inkişafı baxımından müsbət və mənfi cəhətlərə malikdir. Şəhərlərin aqrar-mövqeyi, sənaye-mövqeyi və nəqliyyat-mövqeyi onların formalaşmasına əverişli şərait yaratmışdır.

Kiçik şəhərlərin perspektiv iqtisadi və mədəni inkişafının fərdi və ümumi potensial qiyməti təbii şərait və təbii sərvətləri nəzərə almaqla müəyyənləşir. Təbii şərait amillərinin təhlilinin nəticələrindən aydın olmuşdur ki, ərazinin aqroiqlim ehtiyatları, faydalı qazıntıları,

yeraltı və yerüstü su ehtiyatları, relyef şəraiti əhalinin məskunlaşması üçün optimal şərait yaradır. Relyefin kontraslığı, çay şəbəkəsinin ərazidə qeyi-bərabər paylanması, su qıtlığı, torpaq örtüyünün zəif inkişafı, şoranlaşma, bitki məhsuldarlığının aşağı səviyyəsi isə məskunlaşmaya mənfi təsir göstərən əlverişsiz təbii şərait amilləridir. Əlverişsiz təbii mühit amilləri şəhər məskunlaşma sistemində gələcək şəhər layihələrinin də hazırlanmasında nəzərə alınmalıdır. Əlverişsiz amillərin yaratdığı problemlərin aradan qaldırılması üçün lazım olan mühəndis texniki sistem, eyni zamanda ətraf mühitə texnogen yüklənməni də artıraraq əlavə xərclər yaratmaqla bərabər ərazinin deqredasiyasına da səbəb olur[1]. Ərazinin relyef şəraiti şaquli urbanizasiyanın yaranmasına səbəb olmuşdur. Naxçıvan iqtisadi rayonunda əsas məskunlaşma arealları düzənliklər, dağətəyi zonalar və çayların subasarlarıdır. Naxçıvan dağlıqda yerləşən şəhər məntəqələrinin əhalisinin sayının yüksək olmasına görə digər iqtisadi rayonlardan fərqlənsə də zəif inkişaf tempinə malikdirlər. Şəhər əhalisinin 96,7%-i 500-1000 metr mütləq yüksəklikdə, 3,2%-i 1000-1500 metr yüksəklikdə, 0,1%-i isə 2000-2500 metr mütləq yüksəklikdə məskunlaşmışdır. Naxçıvan, Şərur, Ordubad, Culfa, Babək şəhərləri və Heydərabad, Qıvraq, Əliabad, Nehrəm, Şəhriyar qəsəbələri 1000 m-ə qədər yüksəklikdə, Şahbuz şəhəri, Badamlı, Cəhri qəsəbələri 1000-1500 metr, Ağdərə, Parağaçay qəsəbələri isə 2000-2500 metr aralığında yerləşir. Ərazi meylliyinin məskunlaşma baxımından dəyərləndirilməsi zamanı isə aydın olmuşdur ki, ərazidə düzənlik məskunlaşma baxımından ən uyğun, alçaqdağlıq uyğun, ortadağlıq müəyyən məhdudiyyətlər yaradan və dağlıq isə əlverişsiz meylliyə malikdir. Bura Respublikanın ən az yağıntı alan, ən çox buxarlanma müşahidə edilən, həmçinin ölkə miqyasında ən çox günəş radiasiyası alan yeridir. Şirin su və su-enerji ehtiyatı məqsədilə çayların üzərlərində Uzunoba, Arpaçay, Bənəniyar, Heydər Əliyev və s. su anbarları, nasos stansiyalar, sututarlar vardır. Hazırda bu ehtiyatlar, eyni zamanda külək və külək-günəş hibrid enerji hesabına muxtar respublikanın alternativ enerji ilə təminatı 60%-dən çoxdur. Ərazidə

[1] Bədəlov E.S. Azərbaycan Dövlət mükafatı laureatı, coğrafiya elmləri doktoru, professor Naib Şirin oğlu Şirinovun 100 illik yubileyinə həsr olunmuş // İnsan və relyef təbii təkamülün əsas hissəsi kimi" mövzusunda elmi-praktik konfransın materialları. Azərbaycan Coğrafiya Cəmiyyəti. Bakı, - 2022, - s. 202.

məhsuldar torpaq ehtiyalarının az olmasını nəzərə alaraq, yeni şəhər tikililərin bedlend ərazilərdə yaradılması torpaqlara qənaət etməyə imkan verə bilər. Zəngin mineral su ehtiyatına malik olan muxtar respublikada onun sənaye üsulu ilə emalına hələ 1947-ci ildən başlanılmışdır. Ekzotik görkəmə malik olan bu su mənbələrinin bir çoxu eyni zamanda kurort rekreasiya əhəmiyyətlidir.

Naxçıvan kifayət qədər xammal, əmək təcrübəsi və vərdişləri, əmək ehtiyatları və istehlakçı potensialı ilə ölkə təsərrüfatında xüsusi rola malik olan iqtisadi rayondur. İqtisadi rayonun metal, qeyri-metal və mineral su ehtiyatları istehsal amillərinin əsasını təşkil edir. Hazırda regionun eksklav şəraiti bu ehtiyatlardan tam və səmərəli istifadə etməyə imkan vermir. İqtisadi rayonda inqilabdan əvvəlki sənaye yalnız baramaaçma, pambıqtəmizləmə və duz karxanalarından ibarət idi. XX əsrin ikinci yarısından mədən sənayesi, 1970-ci illərdə kimya, maşınqayırma, metallurgiya, meşə, ağac emalı və s. kimi yeni sənaye sahələri yaradılmışdır. Şərur Pambıqtəmizləmə, Ordubad İpək fabriki və Ordubad Konserv zavodu, Naxçıvan şəhərində tikiş və trikotaj fabrikləri, alminium zavodu həmin dövrün iri müəssisələri idi. Yeyinti və yüngül sənaye ümumi sənaye məhsulunun 90%-dən çoxunu təşkil etmişdir. Bu tipli sənaye müəssisələrinin inkişafı Naxçıvanda yeni şəhər məskunlaşmasının əsasını qoydu. Regionun əsas iqtisadi inkişaf xətti Ordubad – Culfa - Babək – Naxçıvan - Kəngərli - Şərur - Sədərək istiqamətindəki nəqliyyat yolları ətrafında yerləşdiyindən şəhərlər də burada yaranıb. Müstəqillik əldə etdikdən sonra Naxçıvan iqtisadi rayonunun təsərrüfatı əsasən dağ-mədən, yeyinti və yüngül sənaye sahələri ilə təmsil olunmuşdur (şəkil 1). Məşğul əhalinin iqtisadiyyatın sahələri üzrə bölgüsündə ən yüksək pay (50%) kənd təsərrüfatına düşür. Həyata keçirilən dövlət proqramları, digər konsepsiya və layihələrin hazırlanması, həmçinin, muxtar respublikada son illərin "İxrac ili", "Sənaye ili" elan olunması nəticəsində 2005-2022-ci illərdə sənaye məhsulunun miqdarı 25 dəfə, onun hər bir nəfərə düşən miqdarı 33,1 dəfə, sənayedə çalışanların orta sayı isə 4,5 dəfə artmış, yeni məhsul istehsalına və innovasiyaların tətbiqinə şərait yaranmışdır. Mövcud imkanlardan səmərəli istifadə nəticəsində ölkə üzrə ümumi məhsul istehsalının 4,5%-i, sənaye məhsulu istehsalının 2,8%-i, sənayedə çalışanların 5,5%-i, o cümlədən emal sənayesi sahəsində çalışanların

6%-i iqtisadi rayonda cəmlənmişdir. Şəhərlərdə məşğul əhalinin 62,9%-i, sənayedə çalışanların isə 78 %-i Naxçıvan şəhər aqlomerasiyasında təmərküzləşmişdir.

Ölkəmizdə ictimai-iqtisadi şəraitdən və təbii amillərdən asılı olaraq təsərrüfat sahələri və onlara uyğun məskunlaşma sistemi formalaşmışdır. Şəhərlərdə sənaye məhsullarının istehsalının sahəvi struktrunda hasilat sənayesinin payı 0,1%, emal sənayesi məhsullarının istehsalının payı 92,5%, elektrik energisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat 7,1%, su təchizatı, çirkli suların və tullantıların təmizlənməsi 0,5%-dir. Emal sənayesinin 56,1%-i yeyinti sənayesinin, 4,7%-i isə yüngül sənayenin payına düşür. 2008-2015-ci illərdə Naxçıvan MR-də "Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı", "2021-2025-ci illərdə Muxtar Respublikada kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı" kimi tədbirlər yeyinti sənayesinin inkişafı üçün prioritet istiqamət olmuşdur. Lakin iqtisadi rayonda aqrar sahənin sənayeləşdirilməsi əsas məsələ olaraq qalmaqdadır. Yüngül sənaye müəssisisələri zəif inkişaf etmişdir və demək olar ki, əsas müəssisələrində yalnız xüsusi geyim istehsal edilir. Bu baxımdan yüngül sənayenin restrukturizasiyasına ehtiyac yaranıb.

İqtisadi rayonun sosial-iqtisadi inkişaf baxımından təhlilində D.L.Lopatnikovun ərazi inkişaf indeksi metodundan istifadə məqsədə uyğundur [2]. İndeksin tapılmasında aşağıdakı riyazi asılılıqdan istifadə olunur.

$$I = 0{,}1\sqrt{\frac{V^2}{N\,S}}$$

V-rayonun ümumi daxili məhsulunun dəyəri, min manat
N-rayonun əhalisi, min nəfər
S-rayonun sahəsi, min km$^2$

[2] Лопатников, Д.Л., Эстеров, А.И. Возможности испoлъзования индекса хозяственного разития территории в сравнителъном экономико-географицеском анализе // - Москва: Известия Российской Академии Наук, серия География, - 1997.№ 2, - с.84-87.

Formulun limiti 0,5-3,0 arasında dəyişir. 3-dən yüksək göstərici yüksək təmərküzləşməni göstərir. Apardığım hesablamaya əsasən ərazi inkişaf indeksi Naxçıvan şəhərində ən yüksək, Ordubad, Culfa və Sədərək rayonlarında isə aşağıdır (cədvəl 1).

**Cədvəl 1**

**2022-ci ildə Naxçıvan iqtisadi rayonuda şəhər və inzibati rayonların ərazi inkişaf indeksi**

| İnzibati rayonların adı | Sahəsi, $km^2$ | Əhalinin sayı, min nəfər | Sənaye məhsulunun ümumi dəyəri, mln manat | Ərazi İnkişaf İndeksi |
|---|---|---|---|---|
| Naxçıvan şəhəri | 0,19 | 95,6 | 764,0 | 17,8 |
| Şərur | 0,87 | 111,5 | 9,8 | 0,1 |
| Babək | 0,83 | 76,5 | 129,2 | 1,6 |
| Ordubad | 0,98 | 50,4 | 9,8 | 0,1 |
| Culfa | 0,93 | 47,3 | 9,2 | 0,1 |
| Kəngərli | 0,7 | 32,9 | 20,6 | 0,4 |
| Şahbuz | 0,84 | 25,3 | 12,2 | 0,3 |
| Sədərək | 0,16 | 22,7 | 0,5 | 0,1 |
| Naxçıvan iqtisadi rayonu | 5,5 | 463,1 | 1048,6 | 2,1 |

**Mənbə:** Azərbaycan sənayesi (statistik məcmuə) / Məcmuənin rəhbəri T.Budaqov.- Bakı: DSK – 2023,- 217 s., Azərbaycanın demoqrafik göstəriciləri / Məcmuənin rəhbəri T.Budaqov.- Bakı: DSK – 2023, - 593.

İnzibati rayon mərkəzlərində ümumi məhsulun miqdarı azalmış, yalnız Naxçıvan şəhərində isə ümumi məhsulun miqdarı artmış, işçilərin sayı isə azalmışdır. Son onilliklərdə ümumi və məşğul əhalinin sayı artsa da, artım tempi zəifləmişdir. Çünki, iqtisadi rayonda fəaliyyət göstərən müəssisələrin əksəriyyəti kiçik müəssisələrdir. Sənaye müəssisələrinin sayı azdır və onlar iqtisadi rayon əhalisini işlə tam təmin etmir. Kiçik şəhərlərin davamlı inkişafı üçün təbii ehtiyatlardan, ərazidən və əmək ehtiyatlarından səmərəli istifadə etməklə sosial-iqtisadi inkişafın mütərəqqi tendensiyalarına uyğun adekvat yaşayış mühiti yaradılmalıdır.




**Şəkil 1. Naxçıvan MR-də müstəqillik illərində istifayə verilmiş təsərrüfat obyektlərinin xəritə-sxemi.**

Dissertasiya işinin ikinci fəsli "**Şəhər məntəqələrinin demoqrafik inkişaf xüsusiyyətləri və şəhər məskunlaşmasının iqtisadi-coğrafi problemləri**"nə həsr edilmişdir. Bu fəsildə XXI əsrin əvvəlindən günümüzə qədər şəhər məntəqələrinin demoqrafik inkişafının dinamikası, onun komponent və xüsusiyyətlərinin kompleks tədqiqi aparılmışdır. Şəhərləri müəyyənləşdirən amillər çox çeşidli olsa da, ölkələrin əksəriyyətində əhali sayı əsas meyar hesab olunur. Rəsmi statistik məlumatların təhlillərinə əsasən müəyyən olunmuşdur ki, müasir mərhələdə şəhər əhalisinin artımı zəif templə getmiş və əsasən müxtəlif illərin inzibati ərazi dəyişiklikləri şəhər əhalisinin sayındakı tendensiyaları müəyyənləşdirən amil olmuşdur.

Tədqiqatın dəqiqliyini artırmaq məqsədilə Şahbuz şəhərində 53 nəfər arasında apardığım sosial sorğuya əsasən mövcud statistik rəqəmlər şəhərin əhalisinin sayını tam əks etdirmir. Belə ki, hazırda şəhərdə 2013-cü ildə ona birləşdirilmiş Qarababa kəndi ilə birlikdə cəmi 3000 nəfər əhali yaşayır. Bu isə rəsmi göstəricidən 1600 nəfər azdır. Proses sosial-iqtisadi münasibətlər zəminində baş verir. Şəhəryaradıcı təsərrüfat sahələrinin məhdudluğu əhali sayının azalmasına səbəb olmuşdur.

Əhalinin 2000-2019-cu illər ərzində təbii artım göstəricilərinin təhlilindən aydın olur ki, bütün inzibati rayonlarda təbii artım və doğum əmsalı aşağı düşmüş, ölüm əmsalı isə nisbətən sabit qalmışdır. 2010-2019-cu illər ərzində ölkədə şəhər əhalisinin təbii artım əmsalı 1,59 dəfə, iqtisadi rayonda 2,98 dəfə azalmışdır. Kəngərli və Sədərək inzibati rayonlarının şəhər əhalisinin təbii artımı isə 1,4-1,3 dəfə yüksək olmuşdur. 2010-cu ildə təbii artımın bütün göstəricilərində kulminasiya nöqtəsi olmuşdur. Lakin 2010-cu ildən sonra təbii artım azalmış və 2020-ci ildə yalnız Gəncə-Qazax iqtisadi rayonundan irəli olmuşdur. Həmçinin təbii artımın mütləq göstəriciləri də bütün iqtisadi rayonlardan az olmuşdur. Həm iqtisadi rayonun, həm də respublikanın şəhər əhalisi arasında mütləq və nisbi hesabla ölənlər arasında kişilər daha çoxdur. Həmçinin doğum və ölümün nisbi göstəriciləri də azalmış və digər iqtisadi rayonların hamısından geri qalmışdır. İqtisadi rayonda hər 1000 nəfər diri doğulana düşən 1 yaşadək uşaq ölümü 3,6 nəfər, ölkəmizdə isə bu rəqəm 16,7 nəfərdir. Şəhər əhalisinin hər 1000 nəfər diri doğulana düşən 1 yaşadək uşaq

ölümü kənd əhalisinə nisbətən yüksəkdir. Əhalinin həyat səviyyəsi doğum göstəricilərini tam əks etdirmir. Lakin qadınların məşğulluğu, az uşaqla kifayətlənməsi, təhsil səviyyəsi doğumların aşağı düşməsinə təsir göstərir. 2020-ci ildə demoqrafik potensialı ilə seçilən Nehrəm və Cəhri kəndlərinin qəsəbə statusu alması iqtisadi rayonda şəhər əhalisinin təbii artım göstəricilərinin yüksəlməsinə perspektiv şərait yaradıb. Həmçinin doğulanların 53,3%-ni oğlan uşaqları təşkil etmişdir.

Miqrasiya prosesləri ölkənin, onun regionlarının demoqrafik vəziyyətini və sosial-iqtisadi inkişafını stimullaşdıran prosesdir. Məhsuldar qüvvələrin paylanmasında, əmək ehtiyatlarından səmərəli istifadə olunmasında, regional inkişaf fərqinin azaldılmasında miqrasiya xüsusi rol oynayır. İctimai-siyasi, sosial-iqtisadi və sosial-psixoloji amillər miqrasiyanın istiqamətini və intensivliyini müəyyənləşdirir. Muxtar respublikada daxili miqrasiya daha çox əhalinin kəndlərdən şəhərlərə gəlməsi ilə səciyyələnir. Su qıtlığı problemi kəskin olan Naxçıvan Muxtar Respublikasında kəhrizlər üzündən dağılan Sürməlik və Sust kəndini xüsusi qeyd etməliyik. Bu kəndlərin əhalisi Naxçıvan şəhərinə köçürülmüşdür. 1991-2000-ci illərdə 11 mindən çox adam muxtar respublikanı tərk etmişdir[3]. 2004-ci ildən etibarən sosial-iqtisadi inkişaf proqramları nəzdində açılan iş yerləri əhalinin xaricə axınının qarşısını nisbətən almışdır. İqtisadi rayonun miqrasiya göstəriciləri əsasən Naxçıvan şəhəri hesabına dəyişilir. 2000-2010-cu illər ərzində şəhər əhalisinin miqrasiya artımı müsbət 11,2 min nəfər olmuşdur. Ümumi artımla çoxalan 21,4 min nəfər əhalinin 12,1 min nəfəri təbii artımla, 9,3 min nəfəri isə gələnlər hesabına artmışdır. 2011-2020-ci illər ərzində iqtisadi rayondan 3769 nəfər şəhər əhali getmiş, 5138 nəfər isə gəlmiş, miqrasiya saldosu müsbət olmuşdur (cədvəl 2). Kəngərli, Babək və Sədərək rayonlarının şəhər məntəqələrində gələnlərin sayı gedənlərdən çox olmuşdur. Şərur, Ordubad və Culfa rayonlarının şəhər məntəqələrində miqrasiya göstəriciləri böyük qiymət almaqla gedənlərin sayı gələnlərdən çoxluq təşkil etmişdir. Şahbuz rayonunda da şəhər əhalisinin miqrasiya saldosu mənfi qiymət almışdır. Miqrasiyanın intensivlik

[3] Eminov, Z. N. Azərbaycan əhalisi / Z.N.Eminov.-Bakı, - 2005, - 560 səh.

əmsalı 2011-ci ildə 8,1 ‰, 2016-cı ildə 7,9 ‰, 2019-cu ildə 14,8 ‰, 2020-ci ildə isə 4,5 ‰ olub. İqtisadi rayonda gələnlərin 79,1%-i, gedənlərin isə 61,4%-i Naxçıvan şəhərinin payına düşmüşdür. Bu baxımdan da şəhərdə əhali sıxlığı da yüksəkdir (şəkil 2). 2009-2019-cu illər ərzində şəhər yerlərinə xaricdən gəlib yaşayanların payı çox deyil. Şəhər yerlərinə gələnlərin cəmi 2,6%-ni başqa ölkələrdən gələnlər təşkil etmişdir. 2019-cu ildə şəhərlərə gələnlərin 46,9%-i ailə vəziyyəti ilə əlaqədar, 32,6%-i yaşayış şəraitinin dəyişməsi ilə əlaqədar, 18,9%-i isə digər səbəblərə görədir (2019). Həmçinin gələnlərin 62,9%-i qadınlar təşkil edib.

**Cədvəl 2**

**Naxçıvan iqtisadi rayonunda 2011-2020-ci illərdə şəhər əhalisinin təbii və miqrasiya artımı.( nəfər)**

| Illər | Təbii artım | Ümumi artım | Miqrasiya saldosu |
|---|---|---|---|
| 2011 | 2113 | 2145 | 32 |
| 2012 | 2189 | 2269 | 80 |
| 2013 | 2038 | 2196 | 158 |
| 2014 | 1179 | 1023 | -156 |
| 2015 | 1199 | 1159 | -40 |
| 2016 | 1190 | 1417 | 227 |
| 2017 | 849 | 1129 | 280 |
| 2018 | 765 | 955 | 190 |
| 2019 | 748 | 1047 | 299 |
| 2020 | 426 | 725 | 299 |
| Cəmi | 12696 | 14065 | 1369 |

**Mənbə**: Naxçıvan Dövlət Statistika komitəsinin statistik məlumatları əsasında tərtib olunmuşdur.

Miqrasiya sayıla bilən bir proses olduğundan P.V.Vasilenko aşağıdakı düsturla ərazinin keyfiyyət dəyərləndirilməsi üçün cəlbedicilik əmsalını hesablayaraq miqrantların axım istiqamətini müəyyənləşdirmişdir[4].

[4] Василенко.П.В. Методика оценки миграционной привлекательности территори / Географический вестник, Социальная и экономическая география №1, - 2014, с. 38-46.

$$K=\frac{\frac{P_t}{P_r}}{\frac{M_t}{M_r}}$$

Burada, K - ərazinin cəlbedicilik əmsalı, P(t)-iqtisadi-coğrafi rayonda yaşayan əhalinin sayı, P(r)- ayrı-ayrı inzibati rayonlarda yaşayan əhalinin sayı, M(t)-iqtisadi-coğrafi rayona gələn əhalinin sayı, M(r) -ayrı-ayrı inzibati rayonlara gələn əhalinin sayıdır. Bu düsturla apardığımız hesablamaya əsasən ən çox cəlbedicilik əmsalını Naxçıvan şəhəri alsa da son dövrlərdə onun cəlbediciliyində azalma müşahidə olunur( diaqram 1)




**Diaqram 1**. Naxçıvan iqtisadi rayonunda şəhər yerləri üzrə cəlbedicilik əmsalı.




Şəkil 2. Naxçıvan Muxtar Respublikasınnın məskunlaşma xəritəsi (2023-cü il)

Uşaqların sayının, xüsusilə 5 yaşa qədər olan əhalinin sayının artmasına doğum göstəriciləri və körpə ölümü təsir etdiyi halda, gənclərin sayına sosial-iqtisadi amillər, işsizlik, nikah müqaviləsi, miqrasiya prosesləri, yaşlı əhalinin sayına isə daha çox ölüm, gözlənilən orta ömür yaşı, səhiyyənin inkişafı təsir edir. Şəhərlərdə iş yerlərinin artması əmək qabiliyyətli yaşda əhalinin sayının artmasına səbəb olur. Bu baxımdan şəhərdə gənc nəslin sayı artdığı halda kəndlərdə yaşlı əhalinin sayı artır. Son üç dövrün əhali siyahıyaalınmasının təhlilinə əsasən, 0-4 yaş qrupunda uşaqların artım tempi azalmışdır. Bu isə doğulanların artımının 2010-ci ildən sonra azalması ilə əlaqədardır. Əmək qabiliyyətli yaşda əhalinin isə 1999-2009-cu illərdəki artımı 143,4% olduğu halda, 2009-2019-cu illərdə azalaraq 115,5% olmuşdur. 15-19, 20-24, 25-29, 45-49 yaş qrupları əsas azalma səbəbi olmuşdur. Əmək qabiliyyətli yaşdan yuxarı yaşlı əhalinin artımı isə 1999-2009-cu illərdə 139,3%, 2009-2019-cu illərdə isə 147,1% olmuşdur. Babək və Ordubad rayonlarında əməkqabiliyyətli yaşdan böyük yaş qrupunun payı daha çoxdur.

Əmək qabiliyyətli yaşdan kiçik və əmək qabiliyyətli yaşda əhalinin tərkibində 1999-cu ilə kimi qadınların, sonra isə kişilərin sayı çox olmuşdur. Əmək qabiliyyətli yaşdan böyük yaş qrupundakı əhalinin tərkibində qadınların sayı kişilərdən 1999-cu ildə 2 dəfədən çox, 2009-cu ildə isə 2 dəfə az, 2019-cu ildə isə qadınların sayı 2 dəfə çox olmuşdur.

Şəhər əhalisinin yaş-cins strukturu üzrə artım tempinin təhlilindən belə qənaətə gəlmək olar ki, bu cür artım tempi iqtisadi rayonun şəhərlərinin ortamüddətli və uzunmüddətli perspektivdə iqtisadi və sosial inkişafına mənfi təsir göstərə bilər. Şəhərlərdə qadınların mütləq say üstünlüyünün digər səbəbi qadınların orta ömür müddətinin kişilərin orta ömür müddətindən çox olmasıdır.

Yaş-cins göstəricilərinin təhlilindən aydın olur ki, 1999 və 2009-cu illərin yaş-cins piramidaları ”arı pətəyi” piramidaları formasına daha çox uyğun gəlir. Bu tipli piramidalar fəal əhalinin sayının çoxluğu ilə xarakterizə olunur. 2019-cu ilin yaş-cins piramidasını isə 0-4 yaşlı az olan uşaqlar, 9-34 yaşlı tendensiyalarla artan yaş qrupu, 35 yaşdan yuxarı isə tədricən azalan əhali qrupu kimi səciyyələndirmək olar. 2019-cu ilin yaş piramidası digərlərindən

doğulanların hər iki cinsdə azalması, 5-9 yaş qrupunun və yaşlı əhalinin də hər iki cinsdə azalması ilə fərqlənir (diaqram 2). Yaş piramidalarının hər üçünə əsasən deyə bilərik ki, doğulanların əksəriyyəti oğlan uşaqlarıdır.




**Diaqram 2 .Şəhər əhalisinin cins-yaş piramidası. 2019**

Naxçıvan iqtisadi rayonunda şəhər əhalisi arasında olan nikah və boşanmaların miqdarı onun ümumi sayından, cins, yaş quruluşundan, qadınların mədəni-təhsil səviyyəsindən və təsərrüfat işlərində çalışmasından asılıdır. Ailənin funksiyaları olan iqtisadi-təsərrüfat funksiyası, tərbiyəvi funksiya və bərpaedici funksiyaların pozulması nəticəsində boşanma halları çoxalır. 2010-2020-ci illər ərzində isə nikahlar azalmış, boşanmalar isə artmışdır. 2010-cu ilə nisbətən 2020-ci ildə ölkə üzrə nikahların mütləq sayı 2,3 dəfə, iqtisadi rayon üzrə isə 1,7 dəfə azalmışdır. 2010-2020-ci illərdə nisbi nikah səviyyəsi Kəngərli rayonunda 3,1 dəfə, Babək rayonunda 2,6 dəfə, Şahbuz rayonunda 2,1 dəfə, Sədərək rayonunda 1,5 dəfə, Naxçıvan şəhərində 2,4 dəfə, Şərur rayonunda 2,1 dəfə, Ordubad rayonunda 3 dəfə, Culfa rayonunda 2,3 dəfə azalmışdır. Boşanmaların sayı isə Şərur, Babək, Kəngərli rayonlarda kəskin artmışdır. Babək rayonunda şəhər əhalisinin tərkibində nikah və boşanmaların mütləq sayı mexaniki surətdə artmışdır.

2019-cu ildə əhalinin milli-etnik tərkibində şəhər əhalisinin 99,9%-dən də çoxunu azərbaycanlılar təşkil etmişdir. Türk və ruslar digər xalqlara nisbətən çoxdur və əsas hissəsi Naxçıvan şəhərində yaşayır.

**Cədvəl 3**
**2021-ci ildə əhalinin sayına görə şəhər məntəqələrinin qruplaşdırılması**

| | Onlardan əhalisinin sayına görə | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Şəhər yerlərinin sayı | 3000-dək | 3000-5000 | 5000-10000 | 10000-20000 | 20000-50000 | 50000-100000 | 100000-500000 | 500000 və yuxarı |
| **Azərbaycan Respublikası** | | | | | | | | | |
| Şəhər və qəsəbələr | 341 | 169 | 21 | 42 | 52 | 41 | 11 | 4 | 1 |
| Şəhərlər | 79 | 1 | 1 | 13 | 27 | 26 | 6 | 4 | 1 |
| Qəsəbələr | 262 | 168 | 20 | 29 | 25 | 15 | 5 | - | - |
| **Naxçıvan Muxtar Respublikası** | | | | | | | | | |
| Şəhər və qəsəbələrin cəmi | 15 | 6 | 1 | 3 | 4 | - - | 1 | - | - |
| Şəhərlər | 6 | - | 1 | 2 | 2 | - | 1 | - | - |
| Qəsəbələr | 9 | 6 | - | 1 | 2 | - | - | - | |

**Mənbə:** Azərbaycanın demoqrafik göstəriciləri, Bakı 2022, 560 s. ARDSK.

İqtisadi rayonda əhalisinin sayı 3 min, 5-10 min və 50-80 min nəfərə qədər olan şəhər yaşayış məntəqələrinin sayı azalmışdır. Əhalisinin sayı 5 -10 min və 10-20 min olan şəhərlərin sayı ölkənin şəhərlərinin müvafiq olaraq 15,4% və 7,4%-ni, sayı 50-100 min arası olan şəhərlər isə 16,7%-ni tutur (cədvəl 3).

Demoqrafik problemlərin həllində demoqrafik proqnozların əhəmiyyətini nəzərə alaraq şəhər əhalisinin say proqnozunu

hazırlamaq üçün ekstrapolyasiya metodu ilə aşağıdakı riyazi asılılıqdan istifadə edilmişdir[5]:

$$P1 = P0 + \Delta$$

Burada,

$P_0$ - baza ili

$P_1$ - hesablamanın başa çatdığı il,

$\Delta$ - əhalinin artım dinamikası,

t - müddəti bildirir.

Apardığım qısamüddətli analitik proqnoza görə ümumi şəhər əhalisi 14 % artaraq 154,5 min nəfər olacaqdır. Eyni zamanda yaxın gələcəkdə də əhalinin əsas hissəsi Naxçıvan şəhərində yaşayacaq (diqram 3).




**Diaqram 3. Şəhər əhalisinin inzibati rayonlar üzrə payı (2030-cu ilə olan proqnoz)**

---

[5] Allahverdiyev, R.,Nasibov, X. Əhali sayının proqnozlaşdırılması üzrə metodoloji yanaşma aspektləri [Elektron resurs] / 9 s.

Şəhərlərin inkişaf meylləri öyrənilərkən xarici ölkələrin təcrübələrinə əsaslanaraq onların sosial-iqtisadi inkişaf diaqnostikasının aparılması şəhər problemlərinin həlli baxımından əhəmiyyət kəsb edir. Effektiv mexanizm kimi şəhərlərin GZİT təhlilinin aparılması zamanı onların inkişaf hədəfləri və onlara çatmaq üçün imkanlar analiz edilmişdir. Təhlilin strategiyası kimi "Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"ndan istifadə edilmişdir. İqtisadi rayonun mərkəzi, həmçinin dağlıq və aran mövqeyini nəzərə alaraq Naxçıvan, Şahbuz və Culfa şəhərlərinin daxili və xarici faktorları seçilmişdir. Diaqnostik qiymətləndirmə zamanı müəyyən olunmuşdur ki, şəhərlərin güclü tərəflərinin olması ilə yanaşı, onların zəif tərəflərini inkişaf etdirmək üçün imkanlar da genişdir. Həmçinin, risk faktorlarını da düzgün qiymətləndirmək lazımdır.

Dissertasiya işinin III fəsli **"Şəhər məskunlaşmasının səmərəli ərazi təşkili və perspektiv inkişafının tənzimlənməsinin iqtisadi-coğrafi aspektləri**"nə həsr olunmuşdur. Bu fəsildə şəhər məskunlaşmasının dinamikası, məskunlaşmanın ərazi təşkili problemləri, əmək ehtiyatlarından səmərəli istifadə yolları və aparılan islahatlar kompleks tədqiq olunmuşdur. Ölkəmizdə əhalinin optimal təkrar istehsalı, ölümün azaldılması, orta ömür uzunluğunun artırılması, ailələrin inkişafı və s. demoqrafik proseslərin inkişafının tənzimlənməsi dövlət proqramları, tədbirlər planı, qanunverici və qanuni aktlarda, qətnamələrlə formalaşdırılır. Əmək ehtiyatlarından səmərəli istifadə edilməsi də mühüm sosial-demoqrafik və iqtisadi problemlərdən biridir. İqtisadi rayonda 2007-2010-cu illərdə məşğulluq sahəsində strategiya qəbul olunmuş və 2014-2016, 2016-2020 və 2021-2023-cü illəri əhatə edən dövlət proqramları qəbul olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2020-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Məşğulluq strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün tədbirlər planı" hazırlanmışdır. Tədbirlər planında yeni iş yerlərinin açılması, özünüməşğulluğun təmin olunması, kadr hazırlığı, demoqrafik proseslərin əmək bazarına təsirinin proqnozlarının hazırlanması kimi məsələlər əks olunmuşdur.

İqtisadi rayonda 2013-2021-ci illərdə yaradılan yeni iş yerlərinin sayı 2003-2012-ci illərdə açılan iş yerlərinin sayından 38,3% az olmuşdur. Yeni açılmış iş yerlərinin müvafiq olaraq 2003-2012-ci illərdə 48,3%-i, 2013-2021-ci illərdə isə 33,7%-i Naxçıvan şəhərində yaradılmışdır.

Muxtar Respublikada sənayedə çalışanların mülkiyyət növünə görə təsnifatına əsasən qeyri-dövlət sektorunda çalışanların 2010-2022-ci illərdə artım tempi 143,2% olmuşdur. 2019-cu ilin əhalinin siyahıyaalınması materiallarına əsasən təhlil olunmuşdur ki, iqtisadi rayonun şəhərlərində muzdla işləyənlər məşğul əhalinin 74,5%-ni, özünüməşğulluqda çalışanlar isə 25,5% təşkil edir. Muzdla işləyənlərin isə 57,1%-i idarədə, müəssisədə və təşkilatda, 42,8%-i isə fiziki şəxslərin yanında çalışmışdır. İdarədə, müəssisədə və təşkilatlarda dövlət sektorunda çalışanların payı qeyri-dövlət sektorunda çalışanlardan 8,3 dəfə çox olmuşdur.

Müasir dövrdə iqtisadi rayonda şəhər məskunlaşmasının tənzimlənməsi, məhsuldar qüvvələrin ərazi-təşkili, miqrasiya proseslərinin, demoqrafik inkişafın nizamlanması, məşğulluq probleminin ləğv olunması, əmək ehtiyatlarından səmərəli istifadə olunması və s. kimi aktual problemlərin həll olunmasında Dövlət Proqramları, “Azərbaycan 2030: Gələcəyə baxış inkişaf strategiyası”, “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” və s. kimi konsepsiya və layihələr xüsusi əhəmiyyət kəsb edir. Əhali məskunlaşmasının kəmiyyət və keyfiyyət baxımından nizamlanması demoqrafik siyasət və sosial-iqtisadi inkişaf amillərinin qarşılıqlı əlaqəsi ilə mümkündür. Ordubad və Şərur rayonlarının depopulyasiya əmsalının vahiddən aşağı olması, əhalinin qocalması, nikahların azalması, boşanmaların artması, emiqrasiya intensivliyi də region üzrə lokal demoqrafik siyasət aparılmasını zəruri edir.

Məskunlaşmanın geoplanlaşdırılması olan ekistik siyasət istehsal və xidmət sahələrinin yerləşdirilməsi vasitəsilə məskunlaşmanın da ərazidə optimal paylanması və nəticədə ərazinin səmərəli istifadə olunmasına istiqamətlənmişdir. Uzun müddət SSRİ məkanında bütün coğrafi miqyaslarda məskunlaşmanın nizamlanması üçün “səpələnmiş konsentrasiya”

modelindən istifadə olunmuşdur. Bu yolla məcburi şəkildə məskunlaşmanın qütbləşməsinə mane olunurdu. Muxtar respublikada əhalinin əmək vərdişlərinin tarixən dəyişilməsi, suvarmada yaranan çətinliklər, şoranlaşma, bedlend ərazilərin geniş yayılması, deqradasiya prosesləri, kənd təsərrüfatı məhsullarının emalının azalması kimi problemlər ekstensiv inkişafa mane olur. İqtisadi rayonun potensialından səmərəli şəkildə istifadə məhsuldar qüvvələrin ərazi təşkilinin nizamlanmasına və əmək ehtiyatlarından düzgün istifadəyə şərait yaradır. Bunun üçün planlı təsərrüfatçılığa diqqətin artırılmasına ehtiyac vardır.

Əhali məskunlaşmasının təkmilləşdirilməsi üçün iqtisadi rayon mərkəzi ilə digər inzibati rayon mərkəzləri arasındakı radius-məsafə də nəzərə alınmalıdır, lazım olduqda isə ikinci dərəcəli rayon mərkəzi formalaşdırılmalıdır. Şəhərlərin mümkün qədər inzibati rayon üçün əlçatan mövqedə yerləşməsinə diqqət artırılmalıdır. Naxçıvan iqtisadi rayonunda məskunlaşmanın 32%-i, istehsal müəssisələrinin isə əsas hissəsi Naxçıvan-Babək sənaye qovşağında yerləşir. Bu baxımdan məskunlaşma sistemində regional disproporsiya yaranır. Bu problemlərə iqtisadi yanaşma iki cür aparılır: 1) desentralizasiyaya ehtiyac olan yerlərdə müəssisələrin qurulması prosesi dayandırılır, 2) yaxud zəif inkişaf etmiş və mənimsənilmiş ərazilərdə istehsal müəssisələri və əmək ehtiyatlarının sayı artırılır.

Naxçıvan Muxtar Respublikanın dağlıq ərazisində məskunlaşmasının əsas dayaq karkası olan Şahbuz, Badamlı, Parağaçay, Ağdərə kimi şəhər yaşayış məntəqələrində və strateji əhəmiyyətli Heydərabad qəsəbəsində demoqrafik bazaya, həmçinin potensiala uyğun sosial-iqtisadi inkişaf təmin edilməli, əməktutumlu yeni iş yerlərinin yaradılması və köhnəlmiş müəssisələrin müasir texnologiyalar əsasında bərpa olunması, əhalinin mənzil təminatının yaxşılaşdırılması, sahibkarlığa dəstəyin artırılması, nəqliyyat infrastruktrunun qurulması, akademik funksiyasının artırılması kimi tədbirlər davamlı demoqrafik inkişaf üçün perspektiv ola bilər.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Naxçıvan iqtisadi rayonunda məskunlaşmanın formalaşmasının təbii-coğrafi, iqtisadi-coğrafi tədqiqi, demoqrafik inkişafı və perspektiv tənzimlənmə problemlərinin tədqiqi nəticəsində aşağıdakı nəticə və təkliflər irəli sürülmüşdür.

1. Naxçıvan Muxtar Respublikasında şəhər əhalisinin məskunlaşma amplitudu 1635 metrdir. Əhalinin əsas hissəsi 1000 m-ə qədər yüksəklikdə məskunlaşıb. Ərazinin meyilliyi yalnız 2500 metrdən sonra məskunlaşma üçün əlverişsiz şərait yaradır. Naxçıvan iqtisadi rayonunda ərazinin relyefi və texnogen şəraitlə əlaqədar əsas məskunlaşma arealı Naxçıvan şəhəridir. Urbanizasiya prosesi zəif gedir. 1999-2021-ci illər ərzində yalnız əhalisi 10-20 min olan şəhər yaşayış məntəqələrinin və onlarda əhali sayının payı mexaniki sürətdə artmış, digərlərinin isə azalmışdır.

2. İqtisadi rayonda yerli təbii potensialdan zəif istifadə məşğulluq problemi yaradır ki, bu da demoqrafik proseslərin gedişini stimullaşdırır. 2020-ci ildə kəndlərin şəhər yaşayış məntəqəsi statusu alması hesabına urbanizasiya səviyyəsi 2000-ci ildəki 26,8%-dən, mexaniki olaraq 2021-ci ildə 35,4%-ə çatmışdır. 2009-2019-cu illərdə əhalinin əməkqabiliyyətli təbəqəsinin yaş struktrundakı meyllər demoqrafik dividentdə xüsusi əhəmiyyət kəsb etməklə regionun sosial-iqtisadi inkişafı üçün perspektiv yaradır. Doğum əmsalı 2010-cu ildən etibarən azalmış və ölkə göstəricilərindən aşağı olmuşdur. 2020-ci ildə doğumun mütləq göstəriciləri gerililəyərək yalnız Kəlbəcər-Laçın iqtisadi rayonundan irəli olmuşdur. Təbii artımın cins üzrə bölgüsündə iqtisadi rayonda gender bərabərsizliyi müşahidə olunur. Kəndlə şəhər arasında təbii artım göstəriciləri fərqi azalmışdır. 2019-cu ilin cins-yaş piramidasında fəal əhalinin payının çoxluğu müşahidə olunur. 2010-2020-ci illər ərzində ümumi artımın 9,7%-i miqrasiya hesabına olmuşdur. 2010-2020-ci illər ərzində nikahların artım tempi 60,2% olduğu halda boşanmaların artım tempi 153,7% olmuşdur.

3. İqtisadi rayonda əmək qabiliyyətli yaşda əhali sayının çox olması və iş yerlərinin çatışmaması miqrasiyanın intensivliyinə səbəb olub. Ordubad, Şahbuz şəhərlərində və qəsəbələrdə əhalinin miqrasiya saldosu mənfidir. Şəhərlərin miqrasiya cəlbediciliyinin hesablanmasına əsasən aydın olmuşdur ki, əsas miqrant axını Naxçıvan şəhərinə və onun periferiyasınadır. Əhali sayının qısamüddətli proqnozuna əsasən demək olar ki, Naxçıvan şəhərində əhalinin sayı yüksək olaraq qalacaqdır.

4. İqtisadi rayonda təsərrüfatın sahə və ərazi strukturunda olan uyğunsuzluq, emal sənayesi müəssisələrinin az olması və əmək ehtiyatlarından səmərəsiz istifadə və müəyyən qədər mexanikləşmə nəticəsində sənayedə məşğul əhalinin payı azalmışdır. 2009-2019-cu illərdə iqtisadi rayon üzrə əmək qabiliyyətli yaşda məşğul əhalinin payı azalmışdır. 2019-cu ildə tikinti, nəqliyyat, rabitə və anbar təsərrüfatı və xidmət sektorunda çalışan şəhər əhalisinin payı ölkə göstəricisindən yüksək, digər sahələrdə isə aşağı olmuşdur.

## TƏKLİFLƏR

- Regional strateji inkişafa nail olmaq üçün şəhərlərin sosial-iqtisadi inkişafının məqsəd, vəzifə və istiqamətlərini özündə əks etdirən şəhərlərin inkişaf strategiyasının uzunmüddətli perspektivdə konseptual sənədi hazırlanmalıdır.
- Kiçik şəhər və qəsəbələrin gələcəkdə depressiv ərazilərə çevrilməsinin qarşısın almaq üçün demoqrafik proseslərin tənzimlənməsi istiqamətində iqtisadi, təbliğati və təşkilati istiqamətli dövlət siyasətinin aparılmasına ehtiyac vardır. Əhalinin keyfiyyət göstəriciləri də nəzərə alınmalı, yaş-cins struktrundakı mənfi göstəricilər aradan qaldırılmalı, mobil işçi qüvvəsi hesab edilən əməkqabiliyyətli əhali sayı daim nəzarətdə saxlanılmalıdır. Mənfi miqrasiya saldosunun olduğu inzibati rayon mərkəzlərinin məşğulluq probleminin həlli, əhalinin sosial və mənzil təminatının yaxşılaşdırılması yolu ilə miqrasiyanın istiqaməti və intensivliyinə nəzarət olunmalıdır.
- İstehsalın təmərküzləşmənin iqtisadi, sosial və ekoloji təhlükəsi

nəzərə alınaraq, Naxçıvan şəhərində məskunlaşma nisbətən məhdudlaşdırılaraq, kiçik şəhərlərin optimal sosial-iqtisadi inkişaf konteksində həyat keyfiyyətinin yaxşılaşdırılması üçün kompleks tədbirlər görülməlidir. Məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi üçün lokal tənzimlənmə tədbirləri əsasında sənayenin sahə və ərazi strukturu nizamlanmalıdır. Əlverişsiz təbii mühit amillərinin aradan qaldırılması üçün kompleks tədbirlər görülməlidir.

## Dissertasiyanın məzmununa uyğun aşağıdakı məqalələr çap olunmuşdur


1. Naxçıvan MR-in şəhər məntəqələrinin demoqrafik inkişafı və məskunlaşmaya təsir edən amillər // – Bakı: Azərbaycanda və Rusiyada İnsan coğrafiyası: XXI əsrdə inkişafın əsas yolları. İctimai coğrafiyaçıların beynəlxalq (Azərbaycan-Rusiya) elmi konfransının materialları,– 2019-ci il, – s.130-136.
2. Naxçıvan Muxtar Respublikasında şəhərlərin formalaşmasının tarixi-coğrafi amilləri // – Kiev: İn oral and technical presentation, recognition and appreciation of research contributions to Taras Shevchenko international conference with the paper entitled, 5th international congress on social sciences, – 2020, – İD-890-169, – s.207-215.
3. Naxçıvan iqtisadi rayonunun şəhər və şəhər məntəqələrində əhalinin artmasında miqrasiyanın rolu // – Ankara: ıı uluslararası bilimsəl araşdırmalar konqresi, – 2020. – İSBN: 978-625-7914-49-9, s.359-364.
4. Role of natural-geographical factors in the formation and future development of urban settlements in Nakhchivan Autonomous Republic // – New York: 3. İnternational New York conference on evolving trends in interdisiplinary research and practices. İSBN-978-625-7279-52-9,– 2020, – s.59-65.
5. Naxçıvan Muxtar Respublikasında qəsəbələr / Naxçıvan Universiteti. Elmi əsərlər, Naxçıvan, – 2021, №1(20), – s.314-320.

6. Naxçıvan iqtisadi rayonunda əmək ehtiyatlarından səmərəli istifadə edilməsi yolları // – Naxçıvan: Təhsil, tədqiqat və innovasiyanın vəhdəti mövzusunda doktorant və magistrantların III regional elmi konfrans materialları, – 2021, – s.354-357
7. Naxçıvan Muxtar Respublikasında şəhərlərin sosial-iqtisadi inkişafında dövlət proqramlarının rolu /– Bakı: Coğrafiya və təbii resurslar. Azərbaycan Coğrafiya Cəmiyətinin əsərləri,– 2021, №3(15), – s.69-75.
8. Şəhərlərin öyrənilməsinin nəzəri-metodiki əsasları / Naxçıvan Universiteti, – Elmi əsərlər, Naxçıvan, – 2021, №3, – s.205-209.
9. Naxçıvan iqtisadi rayonunda əhalinin cins-yaş struktrunun dinamikası // – Gəncə Heydər Əliyevin anadan olmasına həsr olunmasının 99 illiyinə həsr olunmuş Müasir təbiət və iqtisadi elmlərinin aktual problemləri mövzusunda Beynəlxalq elmi konfrans II hissə, – 2022, – s.159-161.
10. Влияние хозяйственных факторов на городское посоление // – Minsk Экономика, право. инновации: опыт, проблемы, перспективы принял (А) участие в Международной научно-практической конференчии, – 2022 , – s.27-30.
11. Naxçıvan iqtisadi rayonunda əhalinin milli tərkibi // – Naxçıvan, Təhsil, Tədqiqat və innovasiyanın vəhdəti mövzusunda doktorant və magistrantların IV respublika elmi konfrans materialları, – 2022, – s.496-500.
12. Naxçıvan iqtisadi rayonunda şəhər əhalisinin məşğulluq strukturu / – Naxçıvan: Elmi əsərlər. Təbiət və tibb elmləri seriyası, Naxçıvan Dövlət Universiteti, – 2022, – s.141-147
13. Naxçıvan iqtisadi rayonunun şəhər məntəqələrində ailə-nikah strukturunun dəyişilmə meyllərinin tədqiqi / – Naxçıvan: Naxçıvan Universiteti. Elmi əsərlər, – 2022, №3 , – s.241-245.
14. Naxçıvan iqtisadi rayonunda əmək ehtiyatlarından səmərəli istifadə olunması // – Bakı: Coğrafiyanın müasir problemləri: Elm və təhsilin inteqrasiyası" Beynəlxalq elmi-praktiki konfrans, – 2022, – s.237-241.

15. Naxçıvan Muxtar Respublikasında şəhər əhalisinin sayının dinamikası / — Bakı: Pedoqoji Universitetin xəbərləri. Riyaziyyat və təbiət elmləri seriyası, — 2022, — s. 195-202.
16. Naxçıvan ərazisində şəhər mədəniyyətinin formalaşmasında "İpək Yolu"nun əhəmiyyəti // — Naxçıvan: Beynəlxalq İpək yolu və Naxçıvan, 2022, — s.788-791.
17. Effective territorial-organizational forms and problems of urban settlement in Nahchivan economic region /— Bakı: Gənc tədqiqatçı elmi-praktiki jurnal, — 2022, № 2, — s.255-260
18. İssues of the impact of the migration processes on urban settlmentin the Nakhchivan economic region / — Kiev: География та муризм, — 2022, — s.50-56
19. Features of the natural growth development of urban population in Nakhchivan economic region / — Bukhara: Buxoro davlat unıversıtetı, ılmıy axborotı Scıentıfic reports of Bukhara State Unıversıty Научный вестник бухарского государственного университета / ılmiy-nazariy jurnal, — 2023. №3, — s. 29-36.
20. Современное состояние и пути реконструкци иэ економической базы городов в Нахичеванской АР Азербайджанской Республики / — Astrakhan: Astrakhan Bulletin of Ecological Education, — 2023. №2(74), — s.107-115.
21. Analysis of trends in the demographic situation of the Nakhchivan Autonomous Republic during the pandemic // — Tallinn: Proceedings of the XVI International Scientific and Practical Conference Principles of science. Ideals, norms, values in science and style of scientific thinking, — 2023, — s. 14-16
22. Naxçıvan Muxtar Respublikasında şəhər məskunlaşmasının tarixi-coğrafi inkişaf mərhələləri // — Zurich: Proceedings of the XVIII International Scientific and Practical Conference Developing an understanding of the specificities and functions of scientific language, 2023, — s.13-16.

Dissertasiyanın müdafiəsi 21 iyun 2024- cü il tarixində saat 11⁰⁰-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.51 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az 1148, Bakı şəh., Z. Xəlilov küç. 23, Əsas bina.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 20 may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 13.05.2024

Kağızın formatı: A5

Həcm: 38666

Tiraj: 100 nüsxə